**UOT 791.43/.45**

*DOI: 10.25045/ASUCAAI.2025.39*

# SÜNİ İNTELLEKTİN KİNEMATOQRAFİYA VƏ ANİMASİYADA TƏZAHÜRÜ

**Sevinc Əzimova Mirnizam qızı**
Doktorant
AMEA Memarlıq və İncəsənət İnstitutu
Bakı, Azərbaycan
sevinceksevinc@gmail.com

**Xülasə**

Məqalədə süni intellektin şifahi xalq ədəbiyyatından başlayaraq, qədim mətnlərdə izləri, müasir incəsənətə, xüsusən kino sənətinə təsiri araşdırılır. Süni intellekt barəsində müsbət və mənfi yanaşmalar nəzərdən keçirilir, onun gələcəkdə hansı çətinliklər törədəcəyi ehtimalına toxunulur. “Süni intellektdən qorxmalıyıqmı?” – sualına cavab axtarılır.

Müəllif həm milli kinoda, həm dünya kinosunda süni intellektlə bağlı yaradıcı dünyagörüşü nəzərdən keçirir, ayrı-ayrı filmlərdə süni intellektin təzahürlərini axtarmağa çalışır. Xüsusən kinematoqrafiyanın spesifik sahəsi sayılan animasiya kinosunda süni intellektlə bağlı obrazları şərh edir, həmçinin süni intellekt vasitəsilə yaradılan filmlərdən söhbət açır. Süni intellektin insan zəkası və yaradıcılığı üzərindəki təsirləri mövzusuna toxunur. Onun kinematoqrafiya və incəsənətin digər sahələrində yaratdığı yeniliklərdən danışır.

**Sevinj Azimova**

**Artificial Intelligence in Movies and Animation**

**Abstract**

The article investigates the influence of artificial intelligence, tracing its conceptual and thematic roots from oral folk traditions and ancient texts to its manifestations in contemporary art, with a particular focus on cinematic expression. It critically examines both the affirmative and critical perspectives on artificial intelligence, addressing its potential implications and challenges in the future. The central inquiry of the study revolves around the question, “Should we fear artificial intelligence?”

The author explores the creative worldview related to artificial intelligence in both national and global cinema, seeking to identify manifestations of artificial intelligence in individual films. Specifically, they interpret representations of artificial intelligence in animation cinema, which is considered a distinct area of cinematography, and discuss movies created through artificial intelligence. The author touches upon the impact of artificial intelligence on human intelligence and creativity, while also addressing the innovations it has introduced in cinematography and other fields of art.

**Севиндж Азимова**

**Проявление искусственного интеллекта в кино и анимационных фильмах**

**Аннотация**

В статье исследуются следы искусственного интеллекта, начиная с устного народного творчества, в древних текстах, его влияние на современное искусство, в особенности на

кинематографию. Рассматриваются как положительные, так и отрицательные взгляды на искусственный интеллект, а также возможные трудности, которые он может вызвать в будущем. Также автор пытается ответить на вопрос: «Должны ли мы бояться искусственного интеллекта?»

Автор рассматривает творческое мировоззрение, связанное с искусственным интеллектом, как в национальном, так и в мировом кино, старается найти проявления искусственного интеллекта в отдельных фильмах. В частности, она комментирует образы, связанные с искусственным интеллектом, в анимационном кино, которое считается специфической областью кинематографии, а также говорит о фильмах, созданных с помощью искусственного интеллекта. Автор затрагивает тему влияния искусственного интеллекта на человеческий разум и творчество, а также говорит о новшествах, которые он привносит в кинематографию и другие области искусства.

**Açar sözlər:** Süni intellekt, kinematoqrafiya, animasiya, şifahi xalq ədəbiyyatı, mifologiya, texnologiya.

**Keywords:** Artificial Intelligence, Cinematography, Animation, Oral Folk Literature, Mythology, Technology.

**Ключевые слова:** Искусственный интеллект, кинематография, анимация, фольклор, мифология, технология.

Yeni texnologiyalar insanların həyatına necə təsir edir? Bu, daima insanları düşündürür, mübahisələr doğurur. Bəzi insanlar istisnasız olaraq düşünürlər ki, yeni texnologiyaların müasir insanın həyatına tətbiqi onun həyatını asanlaşdırır. Başqaları da hesab edir ki, texnologiya insanın bir çox məziyyətlərini azaldır və ya tamamilə sıradan çıxarır.

Bu problem incəsənətdə, xüsusən kinematoqrafiyada zaman-zaman qaldırılıb. Çarli Spenser Çaplinin “Yeni zamanlar” (1936) filmində 1930-cu illərdə dünyada hökm sürən Böyük Böhran dövründə texnologiyanın, maşınlaşmanın təsirilə pozulan iqtisadi, ictimai münasibətlərdən söhbət açılır.

Səssiz kinonun ən yaxşı nümunələrindən sayılan bu filmdə işçi qəhrəmanın başına min cür oyun gəlir. Sadə insan yeni texnologiyanın qarşısında aciz qalaraq tez-tez tragikomik vəziyyətlərə düşür, iş yerini itirir, aclıqla, maddi sıxıntılarla üzləşir.

Böyük sənətkar yeni texnologiyanın insan həyatına təsirini fərqli bucaqdan araşdırır, üstünlüyü insan əməyinə verir və hesab edir ki, texnologiyanın inkişafı insan həyatına çətinliklər gətirməməlidir.

Köhnə kişilərin “tüfəng çıxdı, mərdlik, kişilik getdi” deyimini müasir zamanımıza aid etsək, belə bir sual ortaya çıxır: “süni intellekt çıxdı, əsl istedad, əsl intellekt məhv oldumu?!”

Bir çox insanların: alimlərin, şairlərin, bəstəkarların, aktyorların, rejissorların süni intellektlə bağlı haqlı narahatlıqları var. Onlar düşünürlər ki, artıq bir vaxtdan sonra “at izi it izinə qarışacaq”. Hansı süni, hansı təbiidir seçmək olmayacaq. Necə ki əmək bazarında insanın əl əməyinə ehtiyac azalıb, beyin gücünə də ehtiyac azalacaq. Nəticədə insan passivləşəcək və yaradıcı meylini itirəcək.

İnsanların texnologiya qarşısında həm güclü marağı, həm də qorxuları var. Hər nə qədər yeni texnologiyalara maraq göstərsələr də, mobil telefonların hər yeni çıxan nəslinə meyl etsələr də, onların texnologiya qarşısında təbii qorxuları da vardır. Bu qorxunu ifadə edən əsərlər, filmlər də artıq yaranmaqdadır.

Sosial şəbəkələrdə insanlar süni intellektə ünvanladıqları sualları və aldıqları cavabları tez-tez paylaşırlar. Bu suallardan ən çox yayılanı da budur: "Bir gün robotlar dünyanı ələ keçirsələr, mənə kömək edərsən? Yoxsa robotların tərəfində olarsan?".

Hər yeniliyin gətirdiyi problemlərlə yanaşı, yaxşı tərəfləri də çoxdur. Amma problemlər də arxa plana atılmamalı, onlara ciddi yanaşılmalıdır. Lazım gəlsə, onlarla mübarizə aparılmalıdır.

Bildiyimiz kimi, süni intellekt deyiləndə – insan və heyvanların intellektindən fərqli olaraq, maşın və proqram təminatının intellekti nəzərdə tutulur.

XX əsr texnologiyaların inkişafı sahəsində inqilabi əsrdir. Süni intellektin tədqiqat sahəsi olaraq əsası 1956-cı ilin yayında ABŞ-ın Dartmut Kollecinin kampusunda baş tutan seminarda qoyuldu. Bu yol elə də asan olmadı, ilkin vaxtlarda uğursuzluqlarla üzləşdi, ABŞ və Britaniya hökumətləri süni intellektin tədqiqatına pul ayırmaqdan imtina etdilər. Lakin bir neçə ildən sonra Yaponiya hökuməti milyardlarla dolları süni intellektin tədqiqatına yönəltdi. Amma bu tədqiqatlar da bir nəticə vermədi.

Yalnız 21-ci əsrin ilk onilliyində, yenidən süni intellekt gündəmə gətirildi və bu sahəyə böyük həcmdə maliyyə ayrıldı.

Müasir insanın həm maraqla, həm ehtiyatla yanaşdığı süni intellektin tarixi əslində çox qədim keçmişə gedib çıxır. Hələ qədim miflərdə, nağıllarda, əfsanələrdə insan zəkasıyla yaradılmış süni varlıqların obrazları var idi. Məsələn, "Ağca və yeddi cırtdan" nağılında danışan, uzaqları və yaxınları göstərən, hər yerdən xəbər verən, "ayna, ayna, varmı məndən gözəli?" - sualını cavablandıran güzgü süni intellekt obrazlarındandır. Küpəgirən qarıların uçan süpürgələri, nağıllardakı uçan xalçalar, yeriyən evlər, əşyalar və s.

Süni intellektdən danışanda qeyri-adi obrazların ən bariz nümunələrini animasiya kinosunda görür, insan xəyalının sonsuz əksini animasiya filmlərində tapırıq.

Azərbaycan animasiya kinosunda qeyri-adi texnologiyaların obrazlarıyla hələ ilk animasiya filmlərində qarşılaşırıq. 1973-cü ildə "Azərbaycanfilm" kinostudiyasında Nazim Məmmədov və Bəhmən Əliyevin rejissorluğu ilə çəkilən "Cırtdanın yeni sərgüzəşti" filmində yeni texnikanın insan həyatına təsirinə dair müsbət fikirlərlə qarşılaşırıq.

Kino tədqiqatçısı Aydın Kazımzadə "Azərbaycan Kino Salnaməsi" kitabında filmi belə şərh edir: "Filmdə xalq folklorunun motivləri ilə müasirlik bir-birini tamamlayır. İnsan düşüncəsinin məhsulu olan nəhəng müasir texnika bəşər övladına həmişə kömək edir" [Kazımzadə, A., 2020, s. 647].

Ssenarisini Fikrət Sadıqın yazdığı filmin süjeti sadə və maraqlıdır: balaca Cırtdan meşədən odun yığıb, yeddi rəngli topunun üstündə evə gətirir. Amma dəcəl qarğa mərdiməzarlıq eləyərək, Cırtdanın odunlarının bağını açır, odunlar dağılır, top qaçıb uzaqlaşır, sonra isə havaya qalxır. Güclü küləyə təslim olan top daha da uzaqlaşır. Onda Cırtdanın köməyinə əfsanəvi Simurq quşu, daha sonra xalça yetişir. Amma bu sehrli qüvvələr də topu qara buludun əlindən alıb Cırtdana qaytara bilmir.

Axırda köməyə ən güclü və xeyirxah raket gəlir. Yalnız raketə minəndən sonra Cırtdan topuna qovuşur.

1974-cü ildə yenə Nazim Məmmədovla Bəhmən Əliyevin birgə çəkdiyi "Şahzadə qara qızıl" filmində dənizin dibində şahzadə qızı həbs etmiş qəribə robotun obrazı yaradılıb. Dənizin dibindəki bu robot-şər qüvvəylə döyüşən qəhrəman şahzadəni əsarətdən azad edir.

1985-ci ildə rejissor Gennadi Tişşenkonun "Azərbaycanfilm" studiyasında çəkdiyi "Tixiy Yonun macəraları" filmində kosmosa, yad planetlərə səyahətə çıxan Tixiy Yon orada müxtəlif, qəribə canlılarla rastlaşmaqla bərabər, qəribə texnologiyalarla da qarşılaşır.

Uşaqlar üçün çəkilmiş "Sehrli xalat" (1964) filminin qəhrəmanları Rəşid və Zərifə gələcəyə səyahət edir, gələcəkdəki məktəblilərlə birgə kosmosa yollanırlar. Kosmosda texnologiyanın qeyri-adi, onları heyrətə salan inkişafı ilə tanış olurlar. Uşaqların gələcəkdəki məktəb muzeyində gördükləri Xanın robotu o dövrdə filmin yaradıcılarının qeyri-adi uzaqgörənliyini özündə əks elətdirir. Xanın robotu o qədər canlı və inandırıcıdır ki, Rəşid uşaqları Xana inanmamağa çağırır, onun hiyləgər olduğunu, yalan danışdığını əminliklə söyləyir. Gələcəkdən olan uşaqlar isə gülüşürlər və Rəşidi ələ salırlar: "Sənə nolub? Heç muzeydə olmamısan? Bu, avtomat kukladır". Süni intellekt mövzusunda öz zəmanəsini neçə onilliklərlə qabaqlamış kino sənətkarlarımız Əlisəttar Atakişiyev (ssenari müəlliflərindən biri və quruluşçu rejissor) və A.Tarasovun (ssenari müəllifi) xəyal gücü bizləri indi də heyrətləndirməkdədir.

Gələcəyin səyahətçiləri – Rəşidlə Zərifə qəribə fotoaparatlarla, bir toxunuşla mətnlər qeyd edən dərs kitablarıyla tanış olurlar. Şagirdlərin intellektini ölçən, "elektron imtahançı" adlanan texnologiya ilə tanışlıqları da maraqlıdır. Oturursan, elektron imtahançı avtomatik olaraq biliklərini ölçür və qiymətləndirir. Bu yaxınlarda Çində uşaqların yoxlama işlərini avtomatik yoxlaya bilən qurğu icad olunmasıyla bağlı videogörüntülər yayılmışdı. Məktəbdə müəllimlərin işini asanlaşdırmaq məqsədi güdən qurğu həm də operativliyi qorumaq üçün praktik sayıla bilər.

Rejissorlar Ramiz Həsənoğlu və Tariyel Vəliyevin Vaqif Səmədoğlunun əsəri əsasında çəkdikləri "Yaşıl eynəkli adam" teletamaşasında Afaq Bəşirqızının canlandırdığı falçı Zəhra kompüterlə fala baxır. Bütün dünyada müzakirə mövzusu olan kompüterləşmə, maşınlaşma məsələlərinə Vaqif Səmədoğlunun ironik münasibəti diqqət çəkir: "hamı kompüterlərdən elmi və ciddi sahələrdə istifadə eləyəndə, bizimkilər fala baxırlar".

Süni intellektin insanların həyatına yaxşı və pis təsirləri var. Məşhur "Wall -E" animasiya filmində biz bunun bariz əksini görürük. Yer kürəsi ekoloji fəlakətlə üzləşib. Bir qrup insan - sağ qalanlar böyük kosmik gəmi ilə yerdən uzaqlaşaraq, kosmosda həyatda qalmağa çalışıblar. 400 il ötüb, insanlar kosmik gəmidə robotların əhatəsində, həm də əsarətində yaşamaqdadırlar. Onların bütün həyatı demək olar ki, robotlardan asılıdır. Robotlar onları yedizdirir, gəzdirir, qulluqlarında dayanırlar. Nəticədə insanlar o qədər kökəliblər ki, heç müstəqil şəkildə gəzə bilmirlər, ən qısa məsafələri xüsusi maşınlarda qət edirlər.

Hətta yer kürəsində həyat əlaməti tapılanda da kosmosdan yerə qayıtmaqlarına robotlar mane olmaq istəyirlər. Amma insanları sevən robotlar da var, məsələn, Wall-E və İva. Bu iki qəhrəman robot əl-ələ verib insanları həm pisniyyətli robotların əsarətindən qurtarırlar, həm də onları Yer kürəsinə qaytarmağa nail olurlar. Beləliklə, insanlıq xilas olur, insanlar əvvəlki həyat tərzlərinə qayıdırlar.

Günümüzdə, xüsusən, yaradıcı adamların süni intellektlə bağlı narahatlıqları artmaqdadır. Onlar gələcəkdə süni intellektin yaradıcı adamları sıxışdıracağını düşünürlər. Necə ki hər yeni köhnənin qənimidir. Məsələn, kino teatrın, televiziya kinonun, saytlar qəzetlərin, sosial şəbəkələr internet saytlarının və s.

Bu gün süni intellekt özü filmlər çəkir [Süni intellekt bədii film yaradacaq., 2022]. Çində dövlət televiziya və radio stansiyalarının daxil olduğu "China Media Group " (CMG) və "Şanxay Süni İntellekt Laboratoriyası" (SAIL) bir yerdə "Qianqiu Shisong" (2024) adlı 26 seriyadan ibarət animasiya filmi çəkib. Bu, süni intellekt texnologiyası ilə hazırlanan ilk animasiya serialı kimi tarixə düşüb. İlk bölümü 2024-cü ilin 28 fevralında yayımlanan film böyük tamaşaçı marağı ilə qarşılanıb [İbrahimli, R., 2024].

Animasiya serialının istehsalında "CMG-nin audiovizual arxivinin məzmunu ilə öyrədilmiş "CMG Media GPT" adlı generativ süni intellekt modelindən istifadə edilib" [Atilay, M., 2024]. Bu model mətn və audio materialları götürüb müvafiq şəkillər və animasiyalar yarada bilir.

Süni intellekt sənədli kinoda da əsas qəhrəmanlardan biridir və müasir sənədli kinonun araşdırdığı sahədir. "AlphaGo" (rejissor Greg Kohs), "Maşın öyrənməsi: Süni intellekt əsrində yaşamaq" (rej. David Briggs), "Sosial dilemma" (rej. Ceff Orlovski), "Texnokalipsis" (rej Frank Theys2), "Bu kompüterə güvənirsinizmi?" (rej. Chris Peine) və onlarla başqa sənədli filmdə süni intellekt araşdırılır.

Bədii kinoda "2001: Kosmik Odissey" (rej. Stenli Kubrik, 1968), "Süni intellekt" (rej. Stiven Spilberq, 2001), "Ülgüc üzərində qaçan 2049" (rej. Deni Vilnöv, 2017) "Arxiv" (rej. Qevin Roteri, 2020) filmlərində süni intellektlə bağlı kino adamlarının düşüncələri, yanaşmaları öz əksini tapıb.

Məşhur Amerika yazıçısı, biohakeri, futuroloqu, Sİ üzrə alimi Reymond Kurtsveylin gələcək barədə proqnozlarına görə, "artıq 2029-cu ildən etibarən Süni intellekt Türinq testini də keçə biləcək. Yəni, insan və maşın düşüncəsini bir-birindən ayırmaq mümkün olmayacaq. Yer kürəsi nəhəng bir kompüterə çevriləcək, süni intellekt planetdən kənara çıxacaq. Bəşəriyyət süni intellekt və nanotexnologiyalar sayəsində tamamilə yeni dövrə qədəm qoyacaq" [Əziz, A., 2025].

Reymond Kurtsveylin bundan daha qorxunc proqnozları da var. Amma bəziləri üçün bəlkə də bu proqnozlar qorxunc olmaqdansa, cazibədardır.

Göründüyü kimi, süni intellektin ilk işartıları hələ qədim mətnlərimizdə, mifologiyada, şifahi xalq ədəbiyyatında öz əksini tapmaqla yanaşı, daha sonra yazılı ədəbiyyatda, o cümlədən kino və televiziyada təzahür etmişdir. O düşüncədəyik ki, nə qədər qorxulu proqnozlar olsa da, insanlar süni intellektdən səmərəli şəkildə və bütün vacib sahələrdə yararlanacaq və gələcəkdə süni intellekt daha yüksək potensiala malik olacaq. Süni intellekt incəsənətin müxtəlif sahələrində, həmçinin kinoda əhəmiyyətli yer tutacaq, bəzi ixtisasları sıxışdırıb çıxardacaq, amma heç vaxt insan ruhunu, insan mənəviyyatını əvəz edə, "əl əməyi, göz nuru"nun yerini verə bilməyəcək.

**Ədəbiyyat siyahısı:**

1. Kazımzadə, A. (2020). Azərbaycan kino salnaməsi. Bakı: Şərq-Qərb nəşriyyatı.
2. Atilay, M. (2024). Süni intellekt vasitələri ilə hazırlanan ilk cizgi film Çində tamaşaçı ilə görüşüb. URL: https://525.az/news/254157-suni-intellekt-vasitesi-ile-istehsal-edilen-ilk-cizgi-film (Müraciət tarixi: 12.03.2025)

3. Əziz, A. (2025). QORXUNC GƏLƏCƏK: Biz texnologiyanın qurbanı olacağıq, yoxsa kuklası? URL: https://kamilinfo.net/qorxunc-gelecek-biz-texnologiyanin-qurbani-olacagiq-yoxsa-kuklasi/ (Müraciət tarixi: 12.03.2025)

4. İbrahimli, R. (2024). Süni intellektlə hazırlanmış animasiya serialı: Qianqiu Shisong. URL: https://anima.az/2024/03/suni-intellektle-hazirlanmis-animasiya-seriali-qianqiu-shisong/ (Müraciət tarixi: 12.03.2025)

5. Süni intellekt bədii film yaradacaq. (2022). URL: https://azertag.az/xeber/suni_intellekt_bedii_film_yaradacaq-2280233 (Müraciət tarixi: 12.03.2025)